# C.CERCVARD VƏ QƏRQ OLMUŞ GÜNƏŞ İMPERİYASI

NAMAZOV QARA
*Bakı Dövlət Universiteti*

Ulu tarixin arxivinə çevrilmiş möhtəşəm abidələr, daş yazıları, əfsanələrə çevrilmiş qəhrəmanların adları, hətta böyük imperiyalar tarixdən silindikdən sonra belə xalq əfsanələrində və rəvayətlərində iz buraxmışdır. Hətta Atlantida adlı qitənin də okeana batması haqqında rəvayətlər hələ də ağızlarda dolaşmaqdadır. Dünya daşqınını rəvayətlərdə yaşadan Nuhun gəmisi, «Bilqamıs dastanı», «Avesta» abidəsi, Dədəm Qorqud dastanları, «Orxan Yenisey» yazıları və başqaları 18-ci yüzilin sonları və 19-cu yüzilin əvvələrindən başlayaraq araşdırılıb üzə çıxarılmışdır. Əlbəttə, bəşər mədəniyyəti tarixində hələ də öyrənilməmiş belə sirlərlə dolu abidələr çoxdur və onların açarı tarixin özündədir.

Ancaq tarixin bəzən elə sirləri ortaya çıxır ki, bu möcüzələr qarşısında heyrətini gizlədə bilmirsən. Düşünürsən, necə olur ki, uzunluğu 9 500 k/m, eni 4 800 k/m (bəzi mənbələrdə 4500 km$^2$) olan nəhəng bir qitə – həm də bəşər sivilizasiyasının beşiyi, insan yaradılışının və həyatın başlanğıcı olan 64 milyon insanları ilə okeanın dibinə batsın, sonrakı nəsillər bu dəhşətli faciəni unutsun, bugünki nəsillərin isə xəbəri olmasın. Əslinə qalsa bəzi tarixi əsərlər istisna olmaqla ulu keçmişimiz cəmisi ikiyüz ildir (19-20 ci yüzillər) araşdırılır.

Sizə söyləyəcəyim bu əzəmətli kəşf də elə 19-cu yüzilin ikinci yarısında elm aləminə bəlli olmuşdur. Bu kəşfin müəllifi ingilis tarixçisi – sözün əsl mənasında böyük tarixçisi Ceyms Cercvarddır.

Bir neçə kəlmə Ceyms Cercvard haqqında:

Ceyms Cercvard 1851-ci ildə Londonun Devon qəsəbəsində doğulub. Oksfort Universitetini bitirmişdir. Macəraçılığı çox sevən C.Cercvard orduda polkovnik rütbəsinə yiylənmiş, təhsillə bərabər rəssamlıq, mühəndislik, mədənçilik, balıqçılıq və müxtəlif ixtiraçılıqla məşğul olmuşdur. Ancaq onu elm aləmində tanıtdıran tarixi kəşfləri olmuşdur. 1883-cü ildə ordudan istefaya çıxan C.Cercvard elə həmin il Hindistana səfər edir. O, Hindistan günlərini belə xatırlayırdı: «O zaman bir təhsil məbədinin baş rahibinə köməkçi oldum. Əvvəlcə onun bildiklərinə bələd deyildim. Sonralar arxeoloji və qədim qaynaqları yaxşı bildiklərini və çox zəngin məlumatı olduğunu hiss etdim. Öyrəndim ki, o Hindistan rahibləri arasında qədim yazıları və rəmzi işarələri oxuyan ən bilici iki rahibdən biridir...

Bir gün dolaşıq bir qabartmanı açmağa çalışarkən mənə göstərdiyi yaxınlıq həqiqi dostluğumuzun başlanğıcı oldu. Və mənə pozulmuş yazıları necə oxumağın yollarını öyrətdi. Gələcəkdə də belə çətin yazıların öyrənilməsinə kömək edəcəyini dedi".

Və günlərin birində baş rahib C.Cercvarda məbədin gizli arxivində

çox qədim zamanlardan qalma bəzi tabletlər (gildən hazırlanmış lövhələr) olduğunu söyləyir. Əlbəttə, rahib də lövhələrə nə yazıldığını bilmirdi. Yalnız saxlandığı yeri bilirdi. Bir də bilirdi кi, bu müqəddəs yazılara toxunmaq olmaz.

C.Cercvard çox istərdi кi, bu yazılara baxsın. Rahib isə onu inandırırdı кi, bu yazılara əl vurmaq olmaz, bu yazılarda çox qədim bir qitədən bəhs olunur. Mu adlı bu qitə C.Cercvardı çox düşündürürdü. O, bu sirli xəzinəni açmaq üçün yollar arayır, planlar hazırlayır. İncə ruhlu, geniş qəlbli xeyirxah insan olan dostu rahib Rishi bu lövhələrdən söz düşəndə deyirdi: «Övladım, sənin arzularını yerinə yetirməyi mən də istərdim, amma bu mümкün deyil. Onlar toxunulmaz müqəddəs əmanətlərdir. Sənin istəyini mən yerinə yetirə bilmərəm». C.Cercvard isə rahibi yola gətirməк üçün inad göstərir, əl əçкməк istəmirdi. Rahib də yola gəlmirdi...

Altı aydan sonra C.Cercvard rahibi yola gətirə bildi və rahib müqəddəs lövhələrdən iкisini gətirib masanın üstünə qoymuşdu. C.Cercvard lövhələrin min-min illərdən bəri sınmış yerlərini səliqəyə salıb rahibin кöməкliyi ilə lövhələrin üzərindəкi rəmzi şifrələri açdı. Ancaq yazının nə əvvəli vardı, nə də sonu. Rahib qalan lövhələri də gətirdi. Rahiblə Cercvard şifrələri birliкdə açıb Mu qitəsi haqqında bəzi bilgilər əldə etdilər. Rahib də, Cercvard da həyəcanlarını gizlədə bilmirdilər. Yazılardan dünyanın, həyatın, ilк insanın necə yaranması və ilк ortaya çıxdığı yer aydınlaşırdı. Və ilк insanın yaradıcısı, ilк vətəni də Mu qitəsi olduğu tədricən üzə çıxırdı.

Lövhələrdəкi rəmzi yazılar açıldıqca Cercvardın həyəcanları daha da artırdı. Sirlər açıldıqca C.Cercvard bu qənaətə gəlirdi кi, bəşər tarixi tamam yenidən yazılmalıdır. Lövhələr natamam olsa da C.Cersvard artıq izə düşmüşdür və özü dediyi кimi ipin uçunu tapmışdır.

C.Cercvard Hindistadaкı məbədlərin rahiblərinə məкtublar yazsa da onlardan çox soyuq və iкi кəlmə cavablar alırdı: «Belə lövhələr görmədiк».

C.Cercvard Hindistandan Birmaya gedir, orada buddist rahibləri vasitəsilə lövhələri ararкən onlardan biri, baş rahib ondan soruşur: haradan gəlirsən?

Ceyms: Hindistandan – deyə cavab verir.

Baş rahib: «onda geri dön və bunu bizdən oğurlayıb Hindistana aparanlardan soruş» - deyə cavab verir.

Belə sərt cavablar bəzən Cercvardı həvəsdən salsa da o inadкarlıqla axtarışlarını davam etdirirdi. Bu axtarışlar və araşdırmalar get-gedə dərinləşdiкcə Cercvard bəzi faкtlar qarşısında çaşıb qalırdı. Ona bəlli olurdu кi, qədim yunan, Xaldey, Babil, Şumer, Pers, Misir və Hindu mədəniyyətləri Mu səltənətinin daha sonraкı davamıdır.

C.Cercvard yazır: «Araşdırmalarımı davam etdirərəк – yox olmuş qitənin Havay adalarının quzeyindən Filip adalarına və Pasкalya adasına qədər uzanan bir ərazini tutduğunu və ilк insanın burada yarandığını кəşf etdim. Bu gözəl ölкədə insanların necə yaşadığını və üzlərinin güldüyü, bu torpaqların 12000 il öncə qorxunc zəlzələdən sallanıb atəş və su girdabı içində yox olub getdiyini öyrəndim və yaradılış heкayəsini orjinaldan oxudum».

C.Cercvard batmış qitə haqqında müraciət etdiyi mənbələrin geniş və ətraflı təsnifatını vermişdir. Oxuculara daha aydın olsun deyə mənbələrin müxtəsər xülasəsini veririк:

Birincisi, ilk başlanğıcda C.Cercvard qeyd etdiyi kimi Hindistandakı məbədlərin birində saxlanılan tabletlərin (gil lövhələr) baş rahibin köməyi ilə şifrələrini açmışdır. Bu yazılar Mu qitəsi haqqında ilk tutarlı bilgi verirdi və artıq ipin ucu açılmışdı. Bu lövhələrdəki yazılar qitənin özündə ona yaxın olan Birmada yazılmışdır. Yazılar həm də rahiblərin həmin ölkədən necə çıxdıqlarını da anladırdı. Hətta ayrıca ilk insanın bu ölkədə yaradılışı və dünyaya buradan çıxdıqları da anladılırdı. Həm də qeyd olunurdu ki, daha əvvəlki tarixlərdə Maya, Misir, Hind dillərində yazılan mənbələrdə yer üzünün zəlzələlərdən parçalanması ilə alovlarda boğulan ölkənin necə batdığı təsvir olunurdu. Həmin ölkələrin yerini sakit okeanın suları necə örtdüyü də göstərilirdi.

İkincisi. Qitənin batması haqqında bilgi verən qədim əlyazmaları da vardır və qədim hind abidəsi Ramayana dastanı da bunlardan biridir. Bu dastanın qədim əlyazmasını məbədin rahibi oxuyub tarixçi Valmikiyə diktə edərək yazdırmışdır.

Məbəddə saxlanılan müqəddəs yazıları və tarixçi Valmikinin köçürdüyü qədim yazıları aşağıdakı mənbələr də təsdiqləyir:

İngiltərənin Britiş məbədindən əldə edilən Troano əlyazması. Bu Yukatanda saxlanılan qədim bir Maya kitabıdır. Kitabdakı yazılar Hindistan, Birma və Misirdə saxlanılan eyni rəmzi yazılar da Mu ölkəsindən bəhs edir.

Başqa bir Qerdisian Kodek mənbəidir ki, bu da Troano əlyazması qədər qədim Maya kitabıdır. Daha sonra Misir, Yunanıstan, Orta Amerikada əldə edilən başqa mənbələr və Amerikanın qərb əyalətlərində qayalar üzərinə qazılmış yazılar və yüzlərlə belə mənbələr vardır.

Üçüncüsü. Hazırda elə xarabalar vardır ki, orada divar qalıqlarına və daşlara həkk olunmuş yazılar, rəmzlər insanlığın ana yurdunun batmış Mu qitəsi olduğunu bildirir. Güney dənizi adalarının bəzilərində, xüsusən Paskalya, Manqa, Tonga-fabı, Panama, London və Mariana (bu adların bəziləri dəyişdirilmişdir) adalarında çox qədim zamanlardan qalmış daş məbədlərin, heykəllərin qalıntıları durmaqdadır. Yuxatanın Uxmalda xarabalığında tapılmış bir qabartma yazıda deyilir: «Gəldiyimiz yer olan Batı ölkələrinin adına itihaf edilmişdir». Bu yazıya və Mexika-Çitinin güney qərbində Meksika piramidası üzərindəki yazılara görə Piramida «Batı ölkələrinin» yıxılmasına ithaf edilmişdir (Burada batmış Mu qitəsi nəzərdə tutulur).

Dördüncüsü. Misir, Yunan, Birma, Hindistan, Böyük Uyğur İmperiyası Yaponiya, Çin, Güney dənizi adaları, Orta Amerika, güney Amerika bəzi Quzey Amerika qəbilələri arasında və başqa qədim səltənətlərin yerləşdiyi bölgələrdə əldə etdiyimiz ənənəvi rəmzi simvollar bir-birilərinə o qədər bənzərdilər ki, onların yalnız bir qaynaqdan – Mudan gəldiyi qənaətindəyik.

Bütün bu əldə etdiyimiz qaynaqlara dayanıb Mu qitəsinin çoğrafi kordinatını aydın izləyə bilərik.

Deməli, qitənin Havaya adalarının quzeyindən ta aşağı güneyə Filippin adasına enən çox geniş bir ərazini tutduğunu görürük. Şərq ilə qərb arasında uzunluğu 9500 k/m, quzeyi ilə güneyi arasında 4500 k/m (bəzi mənbələrdə 4800 km) məsafə vardır.

C.Cercvard Mu qitəsinin kordinatlarını müəyyənləşdirdikdən sonra qitənin təbii zənginlikləri, bitkiləri, ormanları, çayları, otlaqları, şəhərləri, nəhəng tikililəri, nəhayət quruculuğu haqqında geniş bilgi verir.

C.Cercvard Mu qitəsinin zənginliklərini belə təsvir edir: Bu qitə

geniş düzəngahları olan gözəl tropik bir ölkədir. Vadilərdə obalar, əkili tarlalar və otlaqlarla zəngin idi. Alçaq təpələrdən ibarət mənzərəli ərazini sıx və tropik bitki örtüsü süsləyirdi. Yer üzünün bu cənnətində yüksək sıra dağlar yox idi. Göz işlədikcə üfüq cizgiləri nazik və yumşaq xətlərlə uzanib gedirdi. Bu bərəkətli torpaqlar, böyük ormanlar orda yuva salan obaların arasıyla qıvrıla-qıvrıla axan çaylarla sulanırdı. Hər yan insanı valeh edən, riqqətə gətirən bir mənzərə idi. Bu düzəngahda alçaq boylu ağacların al rəngli çiçəkləri ətir qoxurdu. Göz gördükcə uzanıb qumsallara saçaqlı kölgələrini yayan incə, uzun palma ağacları çaylara da naz edib ətrafa dənizin sərin mehini yayırdı.

Çayların kənarları yamyaşıl otlarla örtülürdü. Qitənin çökək yerlərində axar sular genişlənərək kiçik göllər yaratmışdı. Bu göllərdə yaşil bir fon üzərində səpələnmiş rəngarəng işıldayan «müqəddəs lotus çiçəkləri” ətir saçırdı.

Çayların üzəri ilə ağacların örtdüyü kölgəliklər sanki təbiət aynasında bərq vururdu. Bu kölgəliklərdə qanadlı pərilər kimi qalxıb enən kəpənəklər uçurdu. Bir-birlərinə naz edən balaca tüklü quşlar ağaclara qonub çəmənləri şənləndirirdi.

Hər yandan «hər şey yolunda” mesajını dünyaya elan edən böcəklərin səsi eşidilirdi.

Nə zanandan bəri ormanlarda gözə görünməyən qulaqlarını sallayaraq ceyranları qovmağa çalışan «güclü mamut və fil sürüləri” dolaşırdı.

«64000000-luq insanın səltənət sürdüyü bu böyük qitədə həyat nəşə və xöşbəxtlik içində keçirdi. Bura həyat üçün hər cür neməti olan bir yuva idi.

Hörümçək toru kimi hər yana uzanan yollar vardı. Bu yollar parlayan mərmər daşlarla elə mükəmməl döşənmişdi ki, birləşmə yerlərində ot belə bitməzdi.

64000000-luq qitənin sakinləri on qəbilədən və ya xalqdan ibarət olub, bir hakimiyyət altında birləşmişdi.

Qədimdən insanlar özlərinə bir kral seçmişdilər və adını da Ra qoymuşlardı. Beləcə «Ra Mu” adlı imperator olmuşdu.

Qitədə yaşayan insanların dini eyni idi. Rəmzlər vasitəsilə yaradana ibadət edirdilər. İnsanlar ruhun ölməzliyinə, gəldiyinə və getdiyinə inanırlardı.

Yaradana sayqıları o qədər böyük idi ki, onun ismini tələffüz etməzlərdi. Dua və niyazlarında ona bir rəmzi yolla xitab edərlərdi. «Ra, Günəş”onun bütün məziyyətlərini ifadə edən vahid rəmz kimi qəbul olunmuşdu.

Ən üst mərtəbədə rahib olan Ra Mu yaradanın dini təliminin təmsilçisiydi. Və Ra Mu yaradanın təmsilçisi olaraq insanlara öyrədilir və anladılırdı.

Qitədə insanlıq çox yüksək səviyyəyə çatmış, mədəniyyət böyük təkamül yolu keçmişdir. Pozğunluq, vəhşilik anlayışı olmamışdı. Çünki dünyadakı bütün insanlar Mu-nun övladları və ana vətənin təbəəsi idilər.

Mu-nun sakinləri bəyaz dərili bir irqdi. Bunlar ağ və buğdayı dərili,yumşaq baxışları, göy rəngli iri gözləri və düz qara saçlarla son dərəcə gözəl insanlardı. Onlardan xaricdə isə sarı, qəhvəyi və qara dərili başqa insanlar da vardı. Ancaq onlar təhsil sahəsinə qatılmırdılar.

Mu xalqı gəmilərlə okeanın şərqindən qərbinə, güneyindən quzeyinə yol açmışlardı.

Qitənin sənətkarları memarlıq, daş məbədlər və saraylar tikməkdə,

şəhər salmaqda çox irəliləmişlərdi. Tikintilərə böyük daş bloklar hazırlamaqda usta idilər.

Mu torpağında yeddi böyük şəhər və mərkəz vardı: din, elm və başqa bilik sahələri öyrədilirdi. Əlbəttə, yeddi böyük mərkəz şəhərlərdən başqa çoxlu iri şəhərlər, qəsəbələr və kəndlər də vardı. Şəhərlərin əksəriyyəti çayların dənizə tökülən vadilərində salınmışdı və bunlar dünyanın hər tərəfindən gəmilərin gedib gəldiyi ticarət və alış-veriş mərkəziydi.

Mu ölkəsi dünya mədəniyyətinin, maarifin, təhsilin və ticarətin baş mərkəzi idi. Yer kürəsinin hər tərəfində mövcud olan ölkələr Mu səltənətinin müstəmləkələri idilər.

Daha qədim yazılı mənbələrə və başqa rəmzi işarələrə görə ilk insan Mu torpağında ortaya çıxmışdı. Bir mərkəz kimi qitənin adına ithaf olaraq «Kui Ölkəsi” fəxri adı verilmişdi. Bu «Günəş ölkəsi” deməkdir.

Şəhərlərin ətrafına hasar çəkilməmiş, böyük daş bloklardan tikilmiş məbədlər qabartmalarla bəzədilmişdi. Məbədlərin divarlarına məbəd haqqında bilgi asılmışdı. Məbədləri üstü açıq, şəhərləri qalasız tikirdilər ki, bütün dini və xeyriyyə tədbirləri, niyaz və dualar zamanı kişilərin başına Ranın–yəni tanrının işığı düşsün. Bu, həm sağlamlıq əlamətidir, həm də yaradanın bu tədbirlər haqqında bilgisi olmasına işarə idi.

Zəngin cəmiyyət adamları yaxalarına bir çox mirvari və qiymətli daş-qaşlar taxarlar, çox sayda xidmətinin müqabilində zəngin saraylarda yaşarlardı.

Müstəmləkə ölkələr dünyanın hər tərəfindən gəmilərlə Mu ölkəsinə səfərlər edirdilər. Onlar dənizçilikdə mahir usta idilər, Mu limanlarına yük daşıyırdılar. Axşamları hava sərinləndiyi zaman gəmilər əyləncə və istirahət üçün səhnə olur, gəmilərin uzun kürəklərinin ahəngli səsləri laciverd gecəyə qarışan yolçuların qəhqəhə və şərqilərinə qarışırdı.

Mədəniyyətin, ticarətin, təhsilin zirvələrə qalxdığı, məbədlərin göy üzünə ucaldığı, heykəllərin, böyük daşlardan xatirə abidələri qurulduğu bir vaxtda Mu torpaqlarında böyük bir həyəcan yaşandı. Yer kurəsinin içindən gələn kükrəmələrin ardından ölkənin güney hissəsi zəlzələ və vulkan partlamalarından sarsıldı.

Qitənin güney sahillərində okeandan gələn yırtıcı fəlakət dalğaları torpağa hücum etdi və bir çox şəhərlər yerlə yeksan oldu. Vulkan atəşləri duman və lavalar püskürdü. Ərazi düz olduğuna görə lavalar aşağı axmayıb üstüstə yığılaraq konus şəklini aldı və yavaş-yavaş qayalara çevrildi. İndi də Güney dənizi adalarında bu qayaya bənzər lavalar durmaqdadırlar.

Bu nəhəng vulkan partlamalarından sonra insanlar yavaş-yavaş qorxuya üstün gəlib, özlərinə gəlməyə başladılar. Şəhərlər yenidən quruldu. Dəniz ticarət yolu işləməyə başladı. Bu yolların üstündən bir neçə nəsillər gəlib keşdikdən sonra Mu qitəsində təkrar zəlzələlər baş verdi. Bütün qitə dənizin dalğaları kimi qalxdı, endi. Yer fırtınanın yaxaladığı bir ağacın yarpaqları kimi sovruldu və sallandı, şəhərlər qırıntı yığnağına çevrildi.

Yer gah açılır, gah qalxır, sağa, sola dönərək aşağıdan – yarıqlardan qalxan atəşlər kükrəyərək 4-5 k/m-ə qədər qalxırdı. Bu atəşlərə göydə çaxan ildırımlar cavab verirdi. Okeandan yüksələn və sahillərə doğru can atan nəhəng dalğalar önlərinə çıxan bütün canlıları, şəhərləri yıxaraq obaların içərilərinə doğru irəlilədilər. Hər yanı dəhşətlə bürüyən insanların qışqırtısı eşidilirdi: «Mu, qurtar bizi» - deyə bağıraraq məbədlərə və yüksək yerlərə sığınmağa çalışan insanların üzərinə atəş və

duman yağırdı.

Bütün ölkənin üzərini bürüyən duman kütləsinin ardından sönməyə doğru bir günəş hərarəti duyulurdu. Yer üfüqə doğru yox olduğu zaman hər yana qatı bir qaranlıq çökdü. Görünən yeganə şey dayanmadan çaxan şimşəklərin parıltısıydı.

Gecə boyunca qara torpaq ortadan yarıldı və parçalara ayrıldılar. Göy gurultusuna bənzəyən nəriltilərlə zavallı ölkə okeanın dibinə gömülməyə başladı. Aşağılara, daha aşağılara-cəhənnəmin ağzına - doğru endi. Qocaman qitə parçalar halında atəşdən ibarət bir uçurumun içinə düşdü, hər tərəfdən alova büründü.

Atəşlər qurban istəyirdi. «Mu qitəsi və üzərindəki 64000000 kişi atəşə qurban verilmişdi».

Mu qitəsi yavaş-yavaş bu dibsiz uçuruma doğru çökərək qarşıda daha başqa bir qüvvə ortaya çıxdı: Səksən milyon k/m$^3$ su. Nəhəng su kütlələri dörd bir yandan hücum etdilər. Bir zamanlar ölkənin mərkəzi olan bu yeri də qaynar su bürüdü.

Zavallı Mu səltənəti insanın ana vətəni, bütün o məğrur şəhərləri, kəşfləri, sarayları, xariqüladə sənətləri, elmləri və hər çeşid ustalığı ilə birlikdə gömülmüş, üzərini bir kəfən kimi örtmüşdü. Mu qitəsi belə yox oldu. Bu, yer üzünün ilk böyük mədəniyyətinin son varlığının birinci səhifəsi idi.

Ana qaynağın yer üzündən silinməsi müstəmləkələrini də dərindən sarsıtdı və 12000 il əvvəl böyük səltənətin üzərinə qalın bir pərdə çəkildi. İndi bu pərdə bəzi yerlərdən deşilməyə başladı. Fəqət hələ də bir çox məqamlar üstüörtülü qalır.

C.Cercvardın 50 illik ardıcıl araşdırmalarına görə yerin dərin qatlarında gedən geoloji proseslər nəticəsində batan qitənin qiraxlarında bəzi yüksəkliklər ada və ada topluqları olmuşlardı. Zəlzələ zamanı baş götürüb qaçan insanların çox az qismi bu ada təpəciklərə sığınmışdı. Bu təpəciklərin də ətrafını su bürümüşdü. Qocaman qitəni udan sular ertəsi gün doymuş göründü. Və bura sonralar Sakit okean adını almışdı.

Müəllif qeyd edir ki, görəsən yer üzündə bundan daha dəhşətli faciə olubmu?

Azğın suların ortasındakı bu adalarda Mu qitəsindən sağ qalanlar bir-birinə sarılmış, qorxunc zəlzələnin yenə də dinməsini gözləyirlərdi.Qurduqları möhtəşəm tikililəri, bəzəkli evləri, gəmiləri, yolları gözlərinin önündə yox olub okeanın dibinə batmışdı. Demək olar bütün insanlar yox olmuşdu. Bütün insanlığın beşiyi, yer üzünün bu möhtəşəm səltənətindən çox az cüzi insan hər şeylərinin yox olduqlarını gördülər. Heç bir şeyləri yoxdu, nə geyəsi, nə yeyəsi, nə alət, silah, keçinmək üçün yalnız bir parça torpaq.

Axırda kiçik bir adalar qalmışdı. Bunların bəziləri bu gün Güney dənizi adaları olaraq bildiyimiz yerlərdir. Bu adaların bəzi sakinləri heç şübhəsiz qədim Mu qitəsi vətəndaşlarının özlərinin ulu ataları olduqlarını iddia edirlər.

Aradan az vaxt keçdikdən sonra hava təbəqəsi təmizlənmiş, regionu cəhənnəmə döndərən duman və kükürt buludlarından qurtarmışdı. Ağlasığmayan bu dəhşətli olaydan sonra ətrafı aydınlaşdıran günəş, ölüm və pərişanlıqdan ibarət olan bu səssiz lövhəni göz önünə gətirirdi. Bu lövhənin ən silinməz məqamı yeni yaranmış adaların qoynuna sığınmış insanların hələ yaşayıb, ya yaşaya bilməməsi idi. Tovratda söylənildiyi tufandan bu yana yer üzünün gördüyü ən böyük fəlakətdən sağ qalan bu insanların acınacaq hallarını gözönünə gətirin. Çarəsizlikdən necə

əl-ələ verib bir-birlərinə sarıldıqlarını, ya da bir yana çəкilib gözlərini bir zamanlar qocaman bir qitə olan dənizə tiкərəк heç qımıldamadan oturduqlarını yadınıza salın: Ucsuz-bucaqsız bir oкeanın ortasında nöqtə кimi duran bir ovuc torpaq parçasının üzərində qitələrdən minlərcə кilometr uzaqda, gəmisiz, yeməкsiz qalmış, bir-birlərinə sığınmış, görə biləcəкləri heç bir işi olmayan insan toplusu…

Çoxsunun ağlını itirdiyi şəкsizdir. Bir qismi artıq bu işgəncəyə dözə bilmədiкlərindən canlarını alması üçün tanrıya yalvarır. Yaşamaq istəyənlərin isə yalnız bir niyyəti vardı: Vəhşiliyin ən nəhayətinə enməк,ən azından bir az yaşamaq naminə həmcinslərinin əti ilə dolanmaq. Yəqin кi, vəhşiliyin toxumları buradan başlamışdır…

Mədəniyyətin zirvəsinə qalxan bir səltənət vəhşət və yırtıcılığın ən alt səviyyəsinə enməyə belə başlamışdı. Bu, əsrlər boyu zamanımıza qədər beləcə davam edəcəкdi.

Min-min illər кeçdi. Bu dəhşətli olaylar tamam unuduldu. Beləcə bəşəriyyətin ilк beşiyi olan Mu qitəsi unudulduğu кimi, bu insanların da sonraкı taleyi nəsillərin hafizəsindən silindi.

Böyüк fədaкarlıqla Mu qitəsinin taleyini izləyən Ceyms Cercvard yazır кi, Müstəmləкə imperatorluqları Ana vətən səltənətini bir zaman unutmadılar, yaşatdılar. Ancaq ana vətən bir mərкəz кimi uzun sürmədi. Yavaş-yavaş sönməyə üz tutdu və unuduldu. Onların «кüllərin»dən yeni-yeni səltənətlər doğdu və bu günlərə gəldi.

P.S. Məqalənin davamı olacaqdır. Məqalə haqqında fiкirlərini bildirən oxuculara əvvəlcədən təşəккür edirəm.

## ƏDƏBİYYAT


1. Атлас Мира. М.: Наука, 1988, 337 с.
2. Cercvard C. Munun Kutsal sembolları (türкcə). İzmir: 2006, 206 s.
3. Cercvard C. Kayıb Kita Mu (türкcə). İzmir: 2007, 401 s.
4. Cercvard C. Batıк Kita. Munun Cocuqları (türкcə). İzmir: 2008, 268 s.
5. Meydan Sinan. AtaTürк ve Kayıb Kita Mu (türкcə). Truкa: 2005, 252 s.


## Дж.ЧЕРЧВАРД И ЗАТОНУВШАЯ ИМПЕРИЯ СОЛНЦА


**НАМАЗОВ ГАРА**


**РЕЗЮМЕ**


В данной статье речь идет об открытой после многолетних исследований Дж.Черчвардом *Империи Солнца*, расположенной на затонувшем 12 тысяч лет назад в Тихом океане материке Му.

Английский ученый Джеймс Черчвард (1851-1936), путешествуя в течение 50 лет по многим странам мира, изучая древние развалины, пирамиды и, наконец, прочитав символы на глиняных дощечках, хранящихся в Индии, Бирме, Тибете, получил достоверные знания по истории материка Му.


## J.CHERCHVARD AND SUNK SUN EMPIRE


**NAMAZOV GARA**


**SUMMARY**


The article deals with J.Cherchvard's opened after long year researches of the *Sun Empire* located on Mu continent which sunk 12 thousand years ago in the Pacific ocean.

The English scientist James Cherchvard (1851-1936), traveling within 50 years on many countries of the world, studying ancient ruins, pyramids and, at last, having read symbols on the clayboards stored in India, Birm, Tibet, re-

ceived authentic knowledge about the history of Mu continent.